**Azərbaycan-Almaniya strateji tərəfdaşlığında yeni perspektivlər:**

**Yaşıl gələcəyə doğru.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer arasında keçirilən görüşdə iki ölkə arasında münasibətlərin inkişafı, qarşılıqlı əməkdaşlığın dərinləşdirilməsi və gələcək perspektivləri müzakirə edilib. Görüş çərçivəsində dövlət başçıları enerji, iqtisadiyyat və digər strateji sahələrdə əməkdaşlıq imkanlarına toxunublar. Prezident İlham Əliyev mətbuata verdiyi bəyanatda Azərbaycanın bərpaolunan enerji sektorundakı genişmiqyaslı planlarını vurğulayaraq Almaniya şirkətlərinin bu sahədəki təcrübəsinin əhəmiyyətini qeyd edib. Azərbaycan və Almaniya arasında mövcud strateji tərəfdaşlığın gücləndirilməsi istiqamətində aparılan müzakirələr iki ölkənin iqtisadi əlaqələrinin daha da inkişaf etdirilməsinə mühüm töhfə verəcək.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Strateji Planlaşdırma şöbəsinin aparıcı məsləhətçisi Lətif Zeynallı bildirib ki, son illərdə Azərbaycan və Almaniya arasında iqtisadi əməkdaşlıq yüksələn xətt üzrə inkişaf edir. 2024-cü ildə Azərbaycanın Avropa İttifaqı ölkələrinə ixracında Almaniya, İtaliya və Çexiyadan sonra üçüncü yeri tutaraq strateji tərəfdaş kimi önə çıxıb. 2020-ci illə müqayisədə Azərbaycandan Almaniyaya ixrac 3,3 dəfə artaraq 776,9 milyon ABŞ dollarına çatıb. Bu rəqəm Azərbaycanın ümumi ixracında 2,93 faiz, Avropa İttifaqı ölkələrinə ixracında isə 4,6 faiz paya sahibdir. Ticarət əlaqələrində müşahidə olunan bu artım təkcə ixracla məhdudlaşmır. Son beş ildə iki ölkə arasındakı ticarət dövriyyəsi iki dəfəyə yaxın genişlənib. 2020-ci ildə 583,5 milyon ABŞ dolları olan idxal həcmi 2024-cü ildə 1,4 dəfə artaraq 825,7 milyon ABŞ dollarına yüksəlib. Bu göstəricilər Azərbaycanın Avropa bazarına inteqrasiyasının gücləndiyini, Almaniya ilə iqtisadi əlaqələrinin isə davamlı inkişaf etdiyini sübut edir. Sənaye, enerji və innovasiya sahələrində yeni əməkdaşlıq imkanları Azərbaycan-Almaniya münasibətlərini daha da irəli apararaq, strateji tərəfdaşlığın növbəti mərhələsinə qədəm qoymasına şərait yaradır.

Lətif Zeynallı vurğulayıb ki, bu gün Azərbaycan neft hasilatında qabaqcıl olan ölkə kimi bərpa olunan enerji mənbələrinə keçiddə də nümunə ortaya qoyur. Bu məqsədlə 2030-cu ilə qədər elektrik enerjisi istehsalı gücündə bərpa olunan enerji mənbələrinin payının 30%-ə çatdırmaq, 2050-ci ilə qədər isə istixana qazının emissiyalarını 40% azaltmaq əsas hədəflərdəndir. Təsadüfi deyil ki, bərpaolunan enerji layihələrinin icrası ilə əlaqədar “Masdar”, “ACWA Power”, “BP”, “Fortescue Future Industries”, “China Gezhouba Group Overseas”, “Tetra Tech”, “EPRA” və “CESI” kimi nüfuzlu şirkətlər Azərbaycanın etibarlı tərəfdaşlarına çevrilib. Bu sahədə böyük təcrübəyə malik olan Almaniya şirkətləri ilə əməkdaşlıq ölkəmiz üçün strateji əhəmiyyət daşıyır. Bu əməkdaşlıq çərçivəsində yaşıl enerji layihələrinin həyata keçirilməsi, innovativ texnologiyaların tətbiqi və enerji səmərəliliyinin artırılması əsas prioritetlər sırasındadır. Azərbaycan və Almaniya arasında davam edən dialoq, bərpaolunan enerji sahəsində qarşılıqlı təcrübə mübadiləsi və yeni investisiya imkanlarının yaradılmasına töhfə verəcək.

Lətif Zeynallı əlavə edib ki, son illərdə iqtisadi əlaqələrdə əldə olunan müsbət nəticələr, qarşılıqlı ticarət dövriyyəsinin artması və yeni sahələr üzrə perspektivlər iki tərəfin də gələcəkdə daha yaxın əməkdaşlıq qurma niyyətini göstərir. Əlaqələrin daha da inkişaf

etdirilməsi üçün geniş imkanlar mövcuddur. İqtisadi və enerji sektorlarında strateji tərəfdaşlıq Azərbaycan və Almaniya arasındakı əlaqələrin dayanıqlı inkişafını təmin etməklə yanaşı, ölkəmizi regional və qlobal enerji bazarlarında etibarlı oyunçuya çevirir.